# ELM VƏ TƏHSİL FƏDAİSİ

**Sevda Quliyeva**

*BDU, Kitabşünaslıq və nəşriyyat işi kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru*

Müdriklik insanı məhsuldar olmağa sövq edir. Müdrik insanların sayının çox olması toplumun hər sahədə inkşafını təmin edir. Professor Abuzər Xələfovun həyat yoluna nəzər saldıqda gözlərimiz qarşısında nəhayətsiz fəaliyyət, yaradıcılıq canlanır. Onun elm, maarif, təhsil və ictimai fəaliyyətinin miqyası olduqca geniş və əhatəlidir. Abuzər Xələfov hər zaman Ümummilli Lider Heydər Əliyevin siyasətinin və onun ideoloji kursunun təbliğatçısı olub. O, Ulu Öndərin söylədiyi: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir" – kəlamını kitbxana işi sahəsində dövlət siyasətinin başlıca qayəsi hesab edirdi. Abuzər Xələfov – "Kitab hər bir xalqın milli qüruru, Vətənə məhəbbət mənbəyidir" - deyərək kitaba sevgini, kitabxanaya məhəbbəti aşılayırdı. Azərbaycanda kitabxnaşünaslıq elminin banisi professor Abuzər Xələfov misilsiz fəaliyyəti əsaslı elmi məktəb formalaşdırıb və davamçılarına miras qoyub. Professor Abuzər Xələfovun bir neçə nəsil alimlərin yetişməsində müstəsna rol oynayıb. Alimin rəhbərliyi ilə onlarla elmlər doktoru və fəlsəfə doktoru proqramı üzrə dissertasiyalar müdafiə edilib. Ölkəmuzdə fəaliyyət göstərən kitabxnaşünaslıq, biblioqafiyaşünaslıq və kitabşünaslıq istiqaməti üzrə elmi dərəcə almış alimlər məhz professor Abuzər Xələfov elmi məktəbinin yetirmələrəidir. Əminik ki, onun ideyaları, yaratdığı məktəb yaşayacaq və inkişaf edəcəkdir.